Azərbaycan Respublikası Təhsil Nazirliyi

Mingəçevir Dövlət Universiteti

**Mingəçevir Dövlət Univesitetinin**

**2021-2025-ci illər üçün**

**elmi-tədqiqat strategiyası**

Mingəçevir Dövlət Universitetinin Elmi Şurasında 07 dekabr 2020-ci ildə (protokol № 05) təsdiq edilmişdir.

## 1. Ümumi müddəalar

Tabeliyindən və statusundan asılı olmayaraq, hər bir ali təhsil müəssisəsinin əsas vəzifəsi, adından da göründüyü kimi, ilk növbədə, ali təhsil verməkdir. Lakin elmi-tədqiqat işlərinin aparılması hər bir ali təhsil müəssisəsinin, xüsusilə, universitetin ümumi fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd edildiyi kimi: “universitet – ali təhsilin bütün səviyyələri üzrə geniş spektrli mütəxəssislər hazırlığını, orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan çoxprofilli aparıcı ali təhsil müəssisəsi”dir (Maddə 1, bənd 1.0.53).

Eləcə də, Azərbaycan Respublikasının Prezidentinin 14 iyun 2016-cı il tarixli 271-VQ nömrəli Fərmanı ilə təsdiq olunmuş “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda deyilir: “Ali təhsil müəssisəsi tədris prosesi ilə elmi fəaliyyətin vəhdətini təmin edən elmi fəaliyyət subyekti olmaqla, fakültələr, kafedralar, elmi kitabxanalar, laboratoriyalar, mərkəzlər, elmi tədqiqat institutları və digər elmi strukturların bazasında elmin müxtəlif sahələri və istiqamətləri üzrə fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi tədqiqatlar aparır, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasını həyata keçirir.” (Maddə 12, bənd 12.1)

Qeyd olunan müddəalar müasir dövrdə modernləşdirmə yolu ilə sürətlə irəliləyən, ən yaxın gələcəkdə paytaxtın qabaqcıl ali təhsil müəssisələri səviyyəsinə çatmağı hədəfləyən Mingəçevir Dövlət Universitetinin (MDU) fəaliyyətində daim diqqətdə saxlanılır. Hazırda MDU-da təhsil ilə yanaşı elmi-innovativ fəaliyyətə də xüsusi önəm verilir, bu istiqamətdə ardıcıl uğurlu addımlar atılır.

Bu gün ali təhsil müəssisələrinin qarşısında qoyulan tələblər köklü şəkildə dəyişməyə başlamışdır. Bu dəyişikliklər ali təhsil müəssisələrinin fəaliyyətində yeni trendləri ön plana çıxarır, yeni yanaşmaların tətbiqini tələb edir. Xüsusilə, sənaye inqilablarının baş verdiyi, rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə universitetlərin üzərinə yeni missiya düşür.

Hazırda universitetə yalnız yüksək kvalifikasiyalı, ali təhsilli mütəxəssis “istehsal edən müəssisə” kimi baxmaq düzgün deyil. Müasir universitet yeni elmi ideyalar generatoru rolunu oynayan, insanların maddi və mənəvi rifah halının yaxşılaşması üçün elmi şəkildə əsaslandırılmış layihə təklifləri verən, ictimai həyatın və fəaliyyətin bütün sektorlarında (idarəetmə, iqtisadiyyat, təhsil, mədəniyyət və s.) elmi təhlilllər aparıb inkişafa əngəl olan problemləri aşkara çıxara bilən, ən başlıcası isə, bu problemlərin həlli üçün innovativ həll variantları təqdim edən intellektual “beyin mərkəzi” kimi bölgənin, ölkənin avanqardına

çevrilməlidir. Bu baxımdan universitetdə təhsilalanlara təhsil verilməsi onlara yalnız mövcud biliklərin öyrədilməsindən-ötürülməsindən deyil, eyni zamanda elmi təhlillər aparıb, gələcəyin irəli sürə biləcəyi tələbləri proqnozlaşdırıb müəyyənləşdirmək və həmin tələblərə adekvat elmi cavab tədbirlərini axtarlb tapılmasını üsullarının öyrədilməsindən ibarətdir. Bu yanaşma "öyrənməyi öyrətmək" elmi konsepsiyasını ehtva edir.

## 2. Cari vəziyyət: mövcud imkanlar və problemlər

Hazırda MDU-da 10 kafedrada 185 nəfərdən ibarət professor-müəllim heyəti çalışır (152 nəfər ştat üzrə, 33 nəfər əvəzçiliklə). Onların 61 nəfəri elmi dərəcəsi olanlardır: 3 nəfər müvafiq elm sahələri üzrə elmlər doktoru, 58 nəfəri isə fəlsəfə doktorudur.

MDU-nun 32 nəfər əməkdaşı (universitet üzrə əməkdaşların 17,3 %-i), o cümlədən 27 nəfər fəlsəfə, 5 nəfər elmlər doktorluğu üzrə respublikanın ali təhsil müəssisələrinin və Azəebaycan Milli Elmlər Akademiyasının sahə elmi-tədqiqat institutlarının doktorant və dissertantlarıdır.

MDU-da aparılan elmi-tədqiqat işlərinin beynəlxalq və müasir standartlar səviyyəsinə çatdırılması, mühüm nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkil olunması, elmi fəaliyyətin səmərəliliyinin artırılması, elmi əlaqələrin dərinləşdirilməsi, elmin informasiya təminatının və beynəlxalq əməkdaşlığın genişləndirilməsi sahəsində işlər daima diqqət mərkəzində saxlanılır. Bu gün MDU regionun elm, təhsil və sosial mühitində özünəməxsus yer tutmaq, apaıcı rol oynamaq istiqamətində inamla addımlayır.

Son illər MDU-da elmi potensialın inkişaf etdirilməsi sahəsində görülən işlər müsbət dinamik dəyişikliklərə səbəb olmuşdur. Akademik heyətin tədqiqat bacarıqlarının artırılması, ölkənin və regionun dayanıqlı inkişafına töhfə verən, səmərəli və nəticəyönümlü elmi tədqiqatların həyata keçirilməsi, tələbəl və magistrantların tədqiqat və innovasiya fəaliyyətlərinə cəlb edilməsinin təşviqi MDU-da elmi-innovativ fəaliyyətin başlıca prioritetlərinə çevrilməkdədir.

Universitetdə uğurla aparılan struktur islahatları çərçivəsində 2020-ci ildə Elm və innovasiyalar şöbəsi yaradılmışdır. Şöbənin əsas vəzifəsi məhz elmi-tədqiqat və innovasiyalar sahəsində Universitetin fəaliyyətini təşkil və koordinasiya etməkdir.

MDU-da elmi fəaliyyət professor-müəllim heyətinin işinin tərkib hissəsi kimi həzərdən keçirilir. Universitetdə elmi tədqiqat işlərinin aparılması və təşkili qaydaları MDU-nun nizamnaməsi ilə müəyyənləşdirilir. MDU-da informasiya texnologiyaları və elektron tədris mərkəzləri yaradılmış, yüksək sürətli internet təmin edilmişdir.

MDU-da elmi-tədqiqat işləri beşillik planlar əsasında aparılır. Bu planlar tərtib edilərkən tədris və elm sahəsində son illər qəbul edilmiş və icraatda olan Dövlət Proqramları nəzərə alınaraq problemlərin əhatə dairəsi müəyyən olunur. Aparılan elmi-tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır. Hazırda MDU-da "2016-2020-ci illər ücün universitet üzrə proqnozlaşdırılan elmi-tədqiqat işləri"nin planı çərçivəsində dörd elm sahəsi üzrə (təbiət elmləri, texniki elmlər, ictimai elmlər, humanitar elmlər) ümumilikdə 13 problemi və 36 mövzunu əhatə edən müvafiq tədqiqatların aparılması davam etdirilir.

Hazırda MDU əməkdaşları ölkədə və xaricdə keçirilən respublika və beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda fəal iştirak edirlər. Ölkənin ali təhsil müəssisələri tərəfindən keçirilən nüfuzlu elmi tədbirlərin böyük əksəriyyətində MDU-nun professor-müəllim heyətinin üzvləri məruzə, məqalə və tezis ilə çıxış edirlər.

MDU-da hər il Təhsil Nazirliyinin müvafiq siyahısına daxil olan respublika səviyyəli bir elmi konfrans keçirilir.

Son illər MDU əməkdaşlarının Web of Science və Scopus kimi nüfuzlu elmi bazalarda indekslənən elmi nəşrlərdə çap olunan məqalələrinin sayı əhəmiyyətli şəkildə artmışdır. Bu gün MDU üzrə Web of Science bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrin ümumi sayı 17-yə, Scopus bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrin ümumi sayı 5-ə çatmışdır. Bu il Web of Science bazasında MDU-nun profili yaradlmışdır.

Professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətinin əsas formalarından biri kimi tələbələrin elmi-tədqiqat işlərinið rəhbərlik də diqqət mərkəzində saxlanılır. Bu, əsasən, Tələbə Elmi Cəmiyyəti (TEC) vasitəsilə həyata keçirilir. MDU-da TEC-in fəaliyyəti Azərbaycan Respublikası Təhsil Nazirinin 27 iyun 2014-cı il tarixli 752 nömrəli əmri ilə təsdiq edilmiş "TEC haqqında Nümunəvi Əsasnamə"yə uyğun olaraq tənzimlənir. MDU-da da bu Əsasnaməyə uyğun olaraq, TEC-in fakültə nölmələri fəaliyyət göstərir. Mütamadi olaraq fakültələrdə və universitet üzrə TEC-in konfransları keçirilir. MDU-nun professor-müəllim və tələbə heyəti arasında elmi yaradıcılıq qabiliyyəti olan, innovativ ideyalar verə biləcək, buna marağı və potensailı alanlar az deyil.

Qeyd olunanlarla yanaşı, elm və innovasiyalar sahəsində müəyyən problemlər də mövcuddur:

- elmi-tədqiqat işləri universitetdənkənar sifarişlər əsasında deyil, MDU əməkdaşlarının öz təşəbbüsü ilə aparılır;

- elmi tədqiqatların həyata keçirilməsi üçün büdcədənkənar vəsaitlərin cəlb edilməsi praktikası yoxdur, beynəlxalq və respublika səviyyəli qrantlar, təsərrüfat hesablı müqavilələr

əsasında elmi-tədqiqat işləri aparılmır, elmi-tədqiqatların aparılmasına sponsorlar cəlb olunmur;

- ölkənin, eləcə də xarici ölkələrin elm və təhsil qurumları ilə birgə elmi-tədqiqat işləri aparılmır, müştərək elmi layihələr icra olunmur;
- tətbiqi elmi tədqiqatlar aparmaq üçün maddi-texniki baza zəifdir;
- elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqi zəifdir;
- respublikanın əksər ali təhsil müəssisələrində olduğu kimi, MDU-da da texnopark və startap ekosistemlərinin fəaliyyəti olduqca zəifdir.

## 3. Strateji məqsədlər

Elm və innovasiyalar sahəsində MDU-nun strateji məqsədi təhsil-tədqiqat-innovasiya universitetinə çevrilməkdir. Bu strateji məqsədə çatmaq üçün mövcud reallıqlar, qeyd olunan problemlər və çatışmazlılaq, həmçinin MDU-nun spesifikası və akademik potensialı nəzərə alınmaqla, 2021-2025-ci illər üzrə aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

***Strateji hədəf 1 – MDU-nun elmi-tədqiqatçı kadr potensialını daim gücləndirmək.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- MDU əməkdaşlarının sayında alimlərin çəkisinin artırılması üçün əməkdaşlıq etdiyimiz ölkədaxili və xarici ali təhsil müəssisələrinin nüfuzlu alimlərinin dəvət olunması və tədris və elmi-tədqiqat işlərinə cəlb olunması;*

*- MDU əməkdaşlarının, xüsusilə, gənc əməkdaşların yerli və xarici elm və təhsil qurumlarında doktorantura və dissertantura təhsili almalarının təşviq edilməsi və stimullaşdırılması;*

*- MDU əməkdaşlarının yerli və xarici nüfuzlu ali təhsil müəssisələrinə elmi-tədqiqat işləri üçün ezam edilməsi;*

*- MDU-da doktoranturanun açılmasına (ilkin mərhələdə azı bir ixtisas üzrə) nail olunması;*

*- magistrlik dissertasiyalarını mövzularının, bir qayda olaraq, bilavasitə praktikadan – istehsalat və xidmət sahələrindən götürülməsi;*

*- hər ixtisas üzrə müxtəlif nominasiyalar üzrə ən yaxşı magistrlik dissertasiyanın müəyyən edilməsi və mükafatlandırılması;*

*- magistratura təhsilinin təşkilində dünyanın qabaqcıl ali təhsil təcrübəsinin nəzərə alınması – magistraturanın tədris planlarının müasir beynəlxalq tələblərə uyğunlaşdırılması;*

*- magistrlik dissertasiyalarına elmi rəhbərliyə ölkənin qabaqcıl ali təhsil müəssisələrinin nüfuzlu alimlərinin cəlb edilməsi;*

*- magistrantların elmi-tədqiqat təcrübəsinin istehsalat və praktika ilə əlaqələndirilməsi;*

*- magistrantlar arasında elmi-tədqiqat aparmağa marağı və potensialı olan, kreativ düşüncəli istedadlı gənclərin müəyyən edilməsi və onları elmi-tədqiqat işlərinin aparılmasına cəlb və təşviq edilməsi.*

***Strateji hədəf 2 – Tətbiqi elmi tədqiqatlar sahəsində müvafiq maddi-texniki bazanı daim gücləndirmək.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- tətbiqi elmi tədqiqatlar sahəsində müvafiq maddi-texniki bazanın gücləndirilməsi üçün maliyyə dəstəyi verə biləcək tərəfdaş qurumlarla – sənaye-istehsalat müəssisələri ilə razılığın əldə olunması;*

*- 2025-ci ilədək MDU-da müxtəlif sahələrə aid ən azı 3 elmi-tədqiqat laboratoriyasının (məsələn, energetika, kimya, fizika, kibertəhlükəsizlik və ya ekologiya və ətraf mühutun mühafizəsi) qurulması və müvafiq cihaz və avadanlıqlarla təchiz edilməsi;*

*- bölgədə yerləşən sənaye müəssisələri ilə "universitet-sənaye" işbirliyi yaradılması istiqamətində zəruri addımların atılması, o cümlədən:*

*- tərəfdaş sənaye müəssisələri üçün aktual və praktik əhəmiyyətli elmi-texniki problemə həsr olunmuş məsələ ilə bağlı mövzular üzrə elmi-tədqiqat işlərinin planlaşdırılması və yerinə yetirilməsi;*

*- sənaye müəssisələrinin cihaz və avadanlıqlarından elmi-tədqiqat məqsədləri üçün MDU-nun tədqiqatçı əməkdaşlarının istifadə etməsinə şərait yaradılması;*

*- sənaye və istehsalat müəssisələrinin qabaqcıl mühəndis-texniki işçilərinin MDU-da aparılan elmi-tədqiqat işlərinə cəlb olunması;*

*- sənaye və istehsalat profilli mütəxəssis hazırlığı həyata keçirən ixtisas kafedralarında yerinə yetirilən elmi-tədqiqat də müasir, innovativ, rəqəmsal texnologiyaların tətbiqini gücləndirmək üçün həmin kafedraların MDU-nun İnformasiya texnologiyaları kafedrası ilə birgə fəaliyyətinin təçkil və təşviq edilməsi;*

*- müxtəlif sahələr üzrə elmi-tədqiqat laboratoriyalarının yaradılması ilə bağlı layihə təkliflrinın hazırlanması və Təhsil Nazirliyinə, maraqlı tərəflər ola biləcək, maliyyə və ya texniki-təşkilati dəstək verə biləcək – sponsorluq edə biləcək digər potensial nazirliklərə təqdim edilməsi;*

*- əməkdaşlıq etdiyimiz və gələcəkdə əməkdaşlıq edəcəyimiz xarici ölkələrin (Türkiyə, Ukrayna, Qazaxıstan və s.) universitetlərinin profilinə və maraqlarına uyğun elmi-tədqiqat laboratoriyalarının yaradılması və təchizatı üçün mailiyyə və texniki-təşkilati dəstək göstərilməsi barəsində onların razılığının alınması;*

- MDU-nun müsir tələblərə cavab verən texnoparkının yaradılması;

- bölgənin tələbatlarını nəzərə alan nadir istiqamətlərdə elmi-tədqiat mərkəzlərinin yaradılması.

***Strateji hədəf 3 – Elmi-tədqiqat işlərinin, əsasən, universitetdənkənar maliyyə mənbələri hesabına aparılmasına nail olmaq.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- elmtutumlu layihələrə qrant ayıran ölkədaxili fondlar (məsələn, Elm Fondu) və beynəlxalq fondlar (məsələn, Avropa Birliyinin 7 illik (2021-2027) "Horizon Europa" elmi-tədqiqat təşəbbüsü proqramı) və belə layihələrə sifariş verən müəssisələr ilə MDU-da tədqiqat aparan əməkdaşların əlaqələndirilməsi;*

*- elmi-tədqiqat sahəsində fəaliyyət göstərən ölkədaxili və xarici qurumlara və proqramlara təqdim edilən layihə təkliflərinin sayının artırılması (qısamüddətli hədəf olaraq, ilkin mərhələdə ən azı 2 layihə);*

*- mövcud əmək bazarını, istehsalatı öyrənərək, potensial "sifarişçi" qurum və müəssisələrin müəyyən edilməsi və onlardan sifariş gözləmədən, MDU-nun özünün təşəbbüs göstərərək onları əməkdaşlığa dəvət etməsi, təkliflər ilə müraciət etməsi;*

*- bununla bağlı ölkənin əməkdaşlıq etdiyimiz qabaqcıl ali təhsil müəssisələrinin təcrübəsindən bəhrələnərək, onların qrant və sifarişlər əsasında apardıqları tədqiqatlara, icra etdikləri elmtutumlu layihələrə qoşulmaqla müştərək elmi-tədqiqat işlərinin yerinə yetirilməsi.*

*MDU klassik strukturlu, çoxprofilli ali təhsil müəssisəsi olduğundan, cari vəziyyəti, inkan və probelmləri, eləcə də perspektivi nəzərə almaqla, burada elmi-tədqiqatların aparılmasını, əsasən, aşağıdakı prioritet istiqamətlər üzrə qruplaşdırmaq olar:*

*- energetika, informasiya texnologiyaları, riyziyyat, fizika, kimya, ekologiya və ətraf mühitin mühafizəsi, nəqliyyat;*

*- iqtisadiyyat (ümumilkdə və ayrı-ayrı sektorları), idarəetmə, turizm;*

*- pedaqogika, ayrı-ayrı fənlərin tədrisi metodikası, filologiya, tarix.*

***Strateji hədəf 4 – MDU-da yüksək səviyyəli elmi konfranslar keçirmək ənənəsini yaratmaq.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- hər il Təhsil Nazirliyinin müvafiq siyahısına daxil olan ən azı bir beynəlxalq və bir respublika səviyyəli elmi konfransın keçirilməsi;*

*- əməkdaşlıq etdiyimiz və gələcəkdə əməkdaşlıq edəcəyimiz xarici ölkələrin (Türkiyə, Ukrayna, Qazaxıstan və s.) universitetlərinin və ya beynəlxaq elmi-tədqiqat qurumlarının biri ilə birgə hər il azı bir elmi tədbirin (konfrans, simpozium, forum) təşkil edilməsi;*

*- materialları nüfuzlu elmi məlumat bazalarına (Web of Science, Scopus, Springer və s.) daxil edilən beynəlxalq elmi konfransın keçirilməsi (təkcə və ya tərəfdaş ali təhsil müəssisələrinin biri ilə);*

*- elm və ali təhsil sahəsinə bu və ya digər dərəcədə "toxunulan" dövlət proqramlarının, yol xəritələrinin icrasına, eləcə də dövlət və milli bayramlara, əlamətdar hadisə və günlərə, görkəmli elm və dövlət xadimlərinin fəaiyyətinə həsr olunmuş elmi tədbirlərin (konfrans, simpozium, forum, seminar, dəyirmi masa və s.) keçirilməsi;*

*- hər il magistrantların ən azı bir elmi konfransının və seminarının keçirilməsi;*

*- elmi tədbirlərin təşkili üçün maliyyə mənbələrinin – potensial sponsorların tapılması.*

***Strateji hədəf 5 – MDU əməkdaşlarının dərcolunma fəallığını artırmaq.***

***Elmi ictimaiyyətdə bu, xüsusilə, nüfuzlu elmi nəşrlərdə əsərlərin dərc olunması elmi-innovativ tədbirlərdən biri kimi qəbul edilir. Bu hədəfə çatmaq üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- əməkdaşlar üçün, xüsusilə, gənc əməkdaşları üçün elmi məqalələr qoyulan tələblər, onların xüsusiyyətləri, yazılması, tərtibatı və təqdimatı, elmi jurnallarla iş və s. barəsində elmi-praktiki təlim və seminarların təşkil edilməsi;*

*- MDU əməkdaşları üçün Web of Science və Scopus elmi məlumat bazalarına daimi çıxışın təmin olunması;*

*- MDU əməkdaşlarının elmi-informativ axtarış şəbəkələrindən (ResearchGate, Google Scholar) istifadəsinin təşviq və təşkil edilməsi;*

*- yaxın bir il ərzində əməkdaşların Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə (Web of Science, Scopus və Springer və s. elmi məlumat bazalarına daxil olan nüfuzlu elmi nəşrlərdə), o cümlədən nüfuzlu konfrans və simpozium materiallarının toplularında dərc edilən əsərlərə görə mükafatlandırılması sisteminin işlənib hazırlanması və tətbiq edilməsi;*

*- elmi-tədqiqat fəaliyyətinə daha çox üstünlüyün verildiyini əks etdirən diferensial əmək haqqı sisteminin işlənib hazırlanması və tətbiq edilməsi;*

*- əməkdaşlarda, o cümlədən doktorantlar və dissertantlarda, habelə magistrantlarda akademik dürüstlük prinsiplərinə riayət etmək vərdişlərinin yaradılması;*

*- əməkdaşlıq etdiyimiz ölkədaxili və xarici ali təhsil müəssisələrinin nüfuzlu alimləri ilə müştərək elmi məqalə yazılması və nüfuzlu nəşrlərdə dərc olunması praktikasının tətbiq edilməsi;*

*- əməkdaşlarda ingilis dilində məqalə yazmaq bacarıqlarının inkişaf etdirilməsi, bu məqsədlə akademik səviyyəli intensiv ingilis dili kurslarının təşkil edilməsi (universitetdaxili və ya kənardakı kurslardan istifadə etməklə);*

*- qeyd olunanların fonunda fərdi H-indeksinin artmasının hər bir əməkdaş üçün əsas məqsədlərdən birinə çevirlməsi;*

*- elmi-metodiki əsərlərlə birgə, tərdis vəsaitlərinin də hazırlanması – hər kafedraqda mütəxəssis hazırlığı aparılan ixtisasların, fənlərin, həmçinin elmi-pedaqoji kadrların sayı nəzərə alnmaqla, hər il üçün dərslik, dərs vəsaiti, metodik vəsait və s. kimi hazırlanacaq vəsaitlərin sayının proporsional qaydada müəyyənləşdirilməsi və bu vəsaitlərin nəşr olunması;*

*- elmi-innovativ tədqiqatların mühüm nəticələrinin tədris prosesinə real tətbiqi mexanizminin işlənib hazırlanması;*

*- MDU-nun öz nəşriyyatının, mətbəəsinin yaradılması;*

*- 24/7 rejimində işləyən elektron kitabxananın yaradılması.*

***Strateji hədəf 6 – MDU-nun elmi jurnalını təsis etmək.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- jurnalın MDU-da mütəxəssis hazırlığı aparılan ixtisaslara uyğun elm sahələrini əhatə edən bölmələrdən ibarət olan (ən azı, iqtisad elmləri, təbiət və texnika elmləri, humanitar elmlər), ən azı 4 dildə (Azərbaycan, türk, ingilis, rus) nəşr olunan multidissiplinar jurnal olmasının təmin edilməsi;*

*- əməkdaşlıq etdiyimiz ölkədaxili və xarici ali təhsil müəssisələrinin nüfuzlu alimlərinin jurnalın redaksiya şurasının tərkibinə cəlb edilməsinə nail olunması;*

*- jurnalın Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsinə və İSSN nömrəsi almasına nail olunması;*

*- jurnala aid bütün materialları, o cümlədən jurnalın bütün nömrələrini MDU-nun vebsaytında yerləşdirilməsi;*

*- yaxın 2 il ərzində jurnalın ən azı bir elmi bölməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər siyahısına daxil edilməsinə nail olunması;*

*- növbəti illərdə jurnalın bütün bölmələrinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər siyahısına daxil edilməsinə nail olunması;*

*- perspektivdə jurnalın nüfuzlu beynəlxalq elmi məlumat bazalarına daxil edilməsinə nail olunması.*

***Strateji hədəf 7 – Tələbə Elmi Cəmiyyətinin (TEC) fəaliyyətini gücləndirmək.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

*- hələ aşağı kurslardan etibarən yaradıçı düşüncə qabiliyyətinə malik, ən əsası isə, elmi-tədqiqat işlərinə marağı olan tələbələrin müəyyənləşdirilməsi və TEC-ə cəlb edilməsi;*

*- TEC-də tələbələrlə işləməyi professor-müəllim heyətinin fəaliyyətinin ayrılmaz komponentinə çevrillməsinə nail olunması;*

*- TEC-də ən azı MDU-da mütəxəssis hazırlığı aparılan bütün ixtisasların profillərinə uyğun elm sahələri üzrə tədqiqatların aparılmasına nail olunması;*

*- TEC-də yerinə yetirilən tədqiqat işlərinin mövzularının akrual olması, əsasən, istehsalatdan və praktikadan götürülməsi;*

*- hər fakültədə və universitet üzrə hər semestrdə azı bir dəfə TEC-in konfransının keçirilməsi və bu konfranslarda bütün tələblərin dinləyici kimi iştirakının təmin olunması;*

*- TEC-in konfranslarında TEC-də aparılmış bütün elmi-tədqiqat işlərinin nəticələrini əks etdirən məruzələrin dinlənilməsi;*

*- müxtəlif nominasiyalar üzrə TEC konfranslarında "ən yazşı məruzə"nin müəyyən edilməsi və mükafatlandırılması;*

*- əməkdaşlıq etdiyimiz digər ali təhsil müəssisələrinin TEC-ləri ilə birgə elmi konfransların keçirilməsi;*

*- TEC-in fəaliyyəti ilə startap hərəkatının bir araya gətirilməsi;*

*- innovativ ideyalara malik əməkdaş və tələbələrin, habelə dövlət və özəl sektor nümayəndələrinin birgə çalışa biləcəyi Texnoparkın və ya İnnovasiya Mərkəzinin yatadılması və zəruri avadanlıqlarla təchiz edilməsi;*

*- Texnoparkda "inkubasiya" və "akselerasiya" kimi startap ekosistemi mərhələlərini uğurla keçmiş və istehsalat üçün real önəm kəsb edən innovativ ideyaların kommersiyalaşdırılması mexanizminin işlənib hazırlanması;*

*- elmi-praktik innovativ ideyaları olan tələbələrdə sahibkarlıq bacarıqlarının formalaşdırılması;*

*- "startap" və "hackathon" tipli yarışlarda tələbələrinin iştirakının daim təşviq edilməsi və maliyyələşdirilməsi;*

*- "startap" və "hackathon" tipli fəaliyyətlərdə MDU tələbələri ilə əməkdaşlıq etdiyimiz digər ali təhsil müəssisələrinin tələblərinin qarşılıqlı əlaqələrinin təmin edilməsi;*

*- "startap" və "hackathon" tipli yarışlar üçün hazırlanan model və layihələr üçün kənardan maliyyə mənbələrinin, ilk növbədə, tərəfdaş qurumlardan – sənaye-istehsalat müəssisələrindən, özəl sektordan potensial sponsorların tapılması.*

**Yekun**

Hazırda dünyanın elm ictimaiyyəti tərəfindən universitetlərin təkamülündə 4 model fərqləndirilir:

- "Universitet-1" modeli – ali təhsil müəssisəsi;
- "Universitet-2" modeli – təhsillə bərabər səviyyədə elmi-tədqiqat işləri aparan "tədqiqatçı" universitet;
- "Universitet-3" modeli – "sahibkarlıq fəaliyyəti göstərən" universitet, əvvəlki iki missiyaya bilik və innovasiyaların kommersiyalaşdırılması missiyası da əlavə olunur;
- "Universitet-4" modeli – "sosial" universitet, ərazi klaster inkişafının "katalizatoru" rolunu oynamağa başlayır.

MDU-nun kollektivi bu gün ən azı "Universitet-3" modelini strateji hədəf kimi seçməlidir. Bundan ötrü isə, aydındır ki, ilk növbədə, tamamilə "Universitet-2" modelinə nail olmaq lazımdır.

Bununla bağlı "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "- tədqiqat universiteti – elmi fəaliyyətlə tədris prosesinin real inteqrasiyası əsasında elm və təhsil fəaliyyətini eyni dərəcədə səmərəli həyata keçirən, qabaqcıl elmi tədqiqatlar aparan, keyfiyyətli tədris mühitini təmin edən, yüksək elmi və elmi-pedaqoji kadr potensialına malik olan ali təhsil müəssisəsi və ya elm-təhsil mərkəzi"dir (Maddə 1, bənd 1.0.37) və: "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən ali təhsil müəssisələrinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən "Tədqiqat universiteti" statusu verilir" (Maddə 12, bənd 12.6).

Beləliklə, MDU əməkdaşları olaraq, hər birimiz "tədqiqat universiteti" adı almaq uğrunda çalışmalıyıq. Bu məqsəd və hədəf əlçatmaz deyil. Bunun üçün, əsasən, ilk növbədə həm rəhbərlikdə, həm də əməkdaşlarda istək, maraq, özünə inam, iradə və potensial olmalıdır. Bunlar isə var... Hər bir MDU əməkdaşı özünün intellektual və digər qabiliyyət və imkanlarından maksimum dərəcədə istifadə etməklə ümumi işə öz töhfəsini verməlidir.